# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## Əlilliyi olan şəxslərin qanunvericiliklə müəyyən edilmiş hüquq, imtiyaz və üstünlükləri

Azərbaycan Respublikası
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

# Mündəricat

**Sosial ödənişlər** .......... 3
Aylıq müavinətlər .......... 3
Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə .......... 3
Azərbaycan Respublikası Prezidentinin təqaüdləri .......... 4
Birdəfəlik müavinətlər .......... 4
Birdəfəlik ödəmələr .......... 4
Əmək pensiyası .......... 5
Ailə başçısını itirməyə görə pensiya .......... 6
Qulluq stajına görə əmək pensiyasına əlavələr .......... 6
Məcburi dövlət sosial sığortası üzrə ödəmələr .......... 10

**İmtiyazlar** .......... 11
Vergi imtiyazları .......... 11
Sığorta imtiyazları .......... 12
Sanatoriya-kurort yollayışı .......... 13
Ünvanlı sosial yardım .......... 13
Evdə (səyyar) sosial xidmət .......... 14
18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün günərzi qayğı mərkəzi xidmətləri .......... 15
İdman və idman bacarıqlarının artırılması .......... 15
Reabilitasiya vasitələri ilə təchizat .......... 16
Reabilitasiya müalicəsi .......... 16
Peşə-əmək reabilitasiyası .......... 16
Hüquq mühafizə orqanlarında çalışan əlilliyi olan şəxslərin imtiyazları .......... 16
Məhkəmə prosesində iştirakla bağlı .......... 16

**Əlilliyi olan şəxslərə qulluq edən şəxslərə verilən üstünlüklər** .......... 17
Əmək fəaliyyəti ilə bağlı üstünlüklər .......... 17
Vergi ilə bağlı üstünlüklər .......... 17

Ödənişlərlə bağlı üstünlüklər ... 19
Hərbi xidmətə çağırışçılarla bağlı üstünlüklər ... 19

**Hüquqlar** ... 19
Əmək fəaliyyəti ilə bağlı hüquqlar ... 19
Məşğulluqla bağlı hüquqlar ... 20
Təhsillə bağlı hüquqlar ... 21
Dövlət qulluqçuları ilə bağlı hüquqlar ... 22
Çernobıl AES səbəbilə əlilliyi olan şəxslərin hüquqları ... 22
Yol hərəkəti ... 23
**Mənzil təminatı** ... 24
**Minik avtomobili təminatı** ... 24
**Hüquqpozma törətmiş əlilliyi olan şəxslərə edilən güzəştlər** ... 24
**Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulmasına görə cərimələr** ... 25
**Xüsusi istedadlı əlilliyi olan şəxslərə dəstək** ... 26

# Sosial ödənişlər

## Aylıq müavinətlər

1. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **270** manat
2. Orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **220** manat
3. Orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **150** manat
4. Övladlığa götürülən əlilliyi olan uşağa görə – **600** manat

## Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə

5. 0–6 yaş arası uşağa görə - **395** manat
6. 7–13 yaş arası uşağa görə - **415** manat
7. 14–18 yaş arası uşağa görə - **435** manat
8. Vəfat etmiş şəxsin 18 yaşınadək əlilliyi müəyyən edilmiş 18 yaşdan yuxarı əlilliyi olan uşaqlarına ailə başçısını itirməyə görə - **120** manat

## Azərbaycan Respublikası Prezidentinin təqaüdləri

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar sağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslər:

9. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **500** manat
10. Orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **400** manat
11. Orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **330** manat
12. 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə – **100** manat
13. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə - **100** manat
14. Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) - **200** manat
15. Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə - **300** manat

## Birdəfəlik müavinətlər

16. Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət – **300** manat
17. Himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət – **200** manat

## Birdəfəlik ödəmələr

1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət (toplanış) dövründə xəsarət (yaralanma, travma, kontuziya) almasına, habelə həqiqi hərbi xidmət (toplanış) dövründə xəstələnməsinə görə Hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət almasına, habelə həqiqi hərbi xidmət dövründə xəstələnməsinə görə həqiqi hərbi xidmətə yararsız hesab edilərək həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxıldığı gündən, həmçinin ehtiyata və ya istefaya buraxıldığı gündən həqiqi hərbi xidmət dövründə alınmış xəsarət və ya xəstəliklə əlaqədar üç il müddətində əlilliyi müəyyən əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə edilən sığortaolunana birdəfəlik ödəniş:

18. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **8800** manat
19. Orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **6600** manat
20. Orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - **4400** manat

## Əmək pensiyası

| N | Əlilliyin dərəcəsi | Sığorta stajı tələbi | Pensiya kapitalı tələbi |
|---|---|---|---|
| 12. | Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə | 5 il + hər tam il üçün 4 ay | yoxdur |
| 13. | Orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə | 5 il + hər tam il üçün 4 ay | {(Şəxsin yaşı – 15)*4/200}*200 |
| 14. | Orqanizmin funksiyalarının 31- 60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə | 5 il + hər tam il üçün 4 ay | {(Şəxsin yaşı – 15)*4/200}*200 |
| 15. | Xüsusi səbəblə orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (müddətli hərbi qulluqçular)[1] | Yoxdur | Yoxdur |
| 16. | Xüsusi səbəblə orqanizmin funksiyalarının 31-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (müddətsiz hərbi qulluqçular) [2] | Yoxdur | Yoxdur |

[1] *Hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçulara və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına şamil olunmur*

[2] *Hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçulara və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına şamil olunmur*

### Ailə başçısını itirməyə görə pensiya

26. 18 yaşdan yuxarı əlilliyi olan övladlar (əgər əlillik 18 yaşa qədər təyin edilibsə)
27. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ata, ana, ər və arvad.

### Qulluq stajına görə əmək pensiyasına əlavələr

| N | Kontingent | Şərtlər | Əlavənin məbləği |
|---|---|---|---|
| 28. | Sabiq deputat - əmək pensiyası yaşına çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş | deputat kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı | Tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) əməkhaqqının orta aylıq məbləğinin (onların son 12 ay ərzində müvafiq vəzifələr üzrə aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti) (pensiya təyinatı tarixinədək əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla) 80 faizi miqdarı ilə təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər |
| | | səlahiyyət müddəti ərzində aşağıdakı vəzifələrdən birinə seçilmişsə:<br>Azərbaycan Respublikası Milli Məclisinin və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin<br>-sədri<br>-sədrinin birinci müavini<br>-sədrinin müavini<br>-komitə sədri<br>-komitə sədrinin müavini<br>-komissiya sədri<br>-komissiya sədrinin müavini | Qeyd olunan vəzifələr üzrə əməkhaqqının orta aylıq məbləğinin(pensiya təyinatı tarixinədək əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla ) 80 faizi miqdarı ilə təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər |
| 29. | Sabiq MSK üzvü - Əmək pensiyası yaşına çatanadək | Mərkəzi Seçki Komissiyasının üzvü kimi azı səlahiyyət | Tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının |

| | | | |
|---|---|---|---|
| | orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş | müddətinin yarısı qədər sığorta stajı | sayına mütənasib olaraq hesablanmaqla) əməkhaqqının orta aylıq məbləğinin (onların son 12 ay ərzində müvafiq vəzifələr üzrə aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti) (pensiya təyinatı tarixinədək əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla) 80 faizi miqdarı ilə təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər |
| 30. | Sabiq hakim - Əmək pensiyası yaşına çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş | azı 15 il hakim vəzifəsində qulluq stajı | hakim vəzifəsindəki fəaliyyətin son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki əməkhaqqının orta aylıq məbləğinin:<br><br>15 il staj üçün - 50%<br>15 ildən yuxarı staj üçün - 50 % + hər tam il üçün 3% (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)<br><br>orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə |
| 31. | Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş sabiq prokurorluq işçiləri | azı 15 il prokurorluq orqanlarında qulluq stajı | prokurorluq orqanlarında qulluğun 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki əməkhaqqının orta aylıq məbləğinin:<br><br>15 il staj üçün - 50%<br>15 ildən yuxarı staj üçün - 50 % + hər tam il üçün 3% (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)<br><br>orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə |

| | | | |
|---|---|---|---|
| 32. | əmək pensiyası yaşına çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) | Ombudsman kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı | Tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) şəxslərin son 12 ay ərzində müvafiq vəzifələr üzrə aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti yolu ilə müəyyən edilmiş əməkhaqqının orta aylıq əmək haqqının (əmək haqqındakı sonrakı artımlar da nəzərə alınmaqla) 80 faizi miqdarı ilə təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər |
| 33. | Əmək pensiyası yaşına çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş xüsusi rütbəli ədliyyə, miqrasiya və FHN işçiləri | azı 15 il qulluq stajı | Xüsusi rütbəli ədliyyə, miqrasiya və FHN işçisi (hər bir orqan üzrə ayrı) kimi qulluğun son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki əməkhaqqının orta aylıq məbləğinin:<br><br>15 il staj üçün - 50%<br>15 ildən yuxarı staj üçün - 50 % + hər tam il (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün 3%<br><br>orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə |
| 34. | Dövlət qulluqçuları - Əmək pensiyası yaşına çatanadək əmək pensiyası yaşına çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş | Azı 15 il inzibati və yardımçı vəzifələr tutan, habelə 1991-ci il oktyabrın 18-dən «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında, həmçinin müvafiq icra hakimiyyəti | Dövlət qulluğunda fəaliyyətin son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki əməkhaqqının orta aylıq məbləğinin:<br><br>15 il staj üçün - 50%<br>15 ildən yuxarı staj üçün - 50 % + hər tam il üçün 3% (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) |

| | | | |
|---|---|---|---|
| | | orqanının müəyyənləşdirdiyi siyahı üzrə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında xidmət | orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə |
| 35. | Müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi olan hərbi qulluqçulara[2] | Xidmət illərindən asılı olmayaraq | Təminat xərcliyinin 100%-i |
| 36. | Müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi olan hərbi qulluqçulara[2] | Xidmət illərindən asılı olmayaraq | Təminat xərcliyinin 80%-i |
| 37. | Müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi olan hərbi qulluqçulara[2] | Xidmət illərindən asılı olmayaraq | Təminat xərcliyinin 55%-i |
| 38. | Hərbi qulluqçular sırasından orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş digər şəxslərə[2] | Xidmət illərindən asılı olmayaraq | Təminat xərcliyinin 60%-i |
| 39. | Hərbi qulluqçular sırasından orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən | Xidmət illərindən asılı olmayaraq | Təminat xərcliyinin 55%-i |

| | | | |
|---|---|---|---|
| | edilmiş digər şəxslərə[2] | | |
| 40. | Hərbi qulluqçular sırasından orqanizmin funksiyalarının 31-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş digər şəxslərə[2] | Xidmət illərindən asılı olmayaraq | Təminat xərcliyinin 35%-i |

[2] *Hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçulara və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına şamil olunmur.*

[2] *Orqanizmin funksiyalarının 31-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına şamil olunmur.*

**Məcburi dövlət sosial sığortası üzrə ödəmələr**

41. İnsanın immunçatışmazlığı virusu ilə yoluxmuş (İİV) və ya QİÇS xəstəliyinə tutulmuş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın müalicəsində valideynlərdən birinə, yaxud digər qulluq edən şəxsə uşağın qulluğa ehtiyacı olan bütün dövr üçün əmək qabİlİyyətİnİn müvəqqəti itirilməsİnə görə müavinət verilir.
42. İşləməyən ana xəstələndiyi hallarda uşağa qulluq edə bilmədikdə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət 3 yaşadək uşaqlara və 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlara qulluq edən şəxslərə verilir.
43. İşləyən əlilliyi olan şəxslərə (müharibə ilə əlaqədar əlilliyi olan şəxslərdən başqa) istehsalat qəzası və peşə xəstəliyindən başqa qalan hallarda, ardıcıl və yaxud təkrar xəstələnmə zamanı təqvim ilində 6 aydan çox olmamaq şərti ilə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət verilir.
44. Əgər işləyən əlilliyi olan şəxsin əmək qabiliyyətinin müvəqqəti itirməsi istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində baş vermişsə, onda müavinət, xəstə sağalanadək, yaxud da istehsalat qəzası və ya peşə xəstəliyi ilə bağlı əlilliyi yenidən müəyyən edilənədək verilir.
45. İşləyən əlilliyi olan şəxslərə (vərəm xəstəliyi olan əlilliyi olan şəxslərdən başqa) vərəm xəstəliyi ilə xəstələndikdə əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət sağalanadək və ya vərəmlə xəstələnmə nəticəsində əlilliyi yenidən müəyyən edilənədək, lakin 12 aydan artıq olmamaq şərtilə verilir.

# İmtiyazlar

## Vergi imtiyazları

46. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin (maddi yardım almış mülki şəxslərə bu güzəşt o halda verilir ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən şəxsin hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edildiyini təsdiq edən arayış təqdim edilmiş olsun) təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və miraslardan əldə etdiyi maddi yardımın 20000 manatadək olan hissəsi gəlir vergisindən azaddır.
47. Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir gəlir vergisindən azaddır.
48. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır.

    *Misal: Müharibə səbəbilə əlilliyi olan şəxsin hər hansı muzdlu işdən aylıq gəliri 600 manat məbləğindədir. Aylıq gəlir 400 manat məbləğində azaldılır, nəticədə 200 manatdan gəlir vergisi tutulur. 600-400 =200 200* 14/100= 28 (14 % gəlir vergisi) 28 man gəlir vergisi.*

49. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş (müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla), 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin, daimi qulluq tələb edən 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) birinin (özlərinin istəyi ilə), arvadın (ərin), himayəçinin və ya qəyyumun hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

    *Misal: şəxsin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 500 manat məbləğindədir. Aylıq gəlir 200 manat məbləğində azaldılır, nəticədə 300 manatdan gəlir vergisi tutulur. 500-200=300 300*14/100=42 (14% gəlir vergisi) 42 man gəlir vergisi.*

50. Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət

vergisinin dərəcəsi 50 faiz azaldılır. Bu güzəştlərin alınması hüququ müəyyən edilərkən işçilərin orta siyahı sayına əvəzçilik, podrat müqavilələri və mülki-hüquqi xarakterli digər müqavilələr üzrə işləyən əlilliyi olan şəxslər daxil edilmir

51. Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları əmlak vergisini ödəməkdən azaddır.
52. Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin və ailə kəndli təsərrüfatlarının orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və 18 yaşınadək əlilliyi müəyyən edilmiş ailə üzvləri məcburi dövlət sosial sığorta haqqı ödəməkdən azaddır .

## Sığorta imtiyazları

53. Əmək qabiliyyətli olan ailə üzvünün (sığortaolunanın) orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə qulluq etməsi – qulluq edən şəxsin sığorta stajına daxil edilir.
54. 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə qulluq edilməsi müddəti qulluq edən şəxsin (sığortaolunanın) sığorta stajına daxil edilir.
55. İstehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin yaşa görə əmək pensiyası üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət onların sığorta stajına daxil edilir.
56. Sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığortaolunanın əlilliyi müddətsiz müəyyən edildikdə həmin şəxslərə aylıq sığorta ödənişi məbləğləri cəm halda birdəfəlik ödənilir.
57. Sığorta olunanın əlilliyi ilə əlaqədar pensiya, yaxud renta şəklində dövri sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan annuitet sığortası hüququ vardır. *Annuitet – sığorta şirkəti ilə bağlanmış, müəyyən vaxtdan etibarən, məsələn təqaüdə çıxandan sonra fiziki şəxsə müntəzəm olaraq pul məbləği almaq hüququ verən razılıq və ya müqavilədir.*
58. Dövlət icbari şəxsi sığorta üzrə Azərbaycan Respublikası Milli Məclisinin deputatları, hakimlər, prokurorluq işçiləri, müstəntiqlər, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən, habelə fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən şəxslər, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarında, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərində, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslər və toplanışlarda olan hərbi vəzifəlilər və mülki müdafiə qüvvələrinin şəxsi heyəti, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında

xidmət keçən diplomatik xidmət əməkdaşları və inzibati-texniki xidməti həyata keçirən şəxslərin xidmət dövrü və ya xidməti vəzifələrinin icrası ilə əlaqədar əlilliyi müəyyən edildikdə, sığorta məbləğlərinin aşağıdakı faiz nisbətlərində sığorta ödənişi verilir:

- orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə – 80 faiz
- orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə – 60 faiz
- orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə – 40 faiz

## Sanatoriya-kurort yollayışı

59. Əlilliyi olan şəxslər ölkə hüdudları daxilində sanatoriya-kurort putyovkası ilə təmin olunurlar.
    - işləyənlər - iş yerindən,
    - işləməyənlər - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbisosial ekspert komissiyası tərəfindən tərtib edilmiş Fərdi Reabilitasiya Proqramında nəzərdə tutulduğu halda Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən təmin olunurlar.
    - orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsləri və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsləri müşayiət edən şəxslər sanatoriya-kurort putyovkaları ilə həmin əlilliyi olan şəxslərin, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin sanatoriya-kurort putyovkası ilə təmin olunduqları idarə, müəssisə, təşkilat, orqanlar tərəfindən təmin olunurlar.
    - istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər isə təqsirkar işəgötürənin vəsaiti hesabına işəgötürən tərəfindən sanatoriya-kurort putyovkası (yollayışı) ilə təmin olunurlar.

## Ünvanlı sosial yardım

60. ÜDSY alınması üçün müraciət zamanı aşağıdakı şəxslərdən əmək fəaliyyəti tələb edilmir:
    - orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;
    - ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə qulluq etməsi;
    - ailənin əmək qabiliyyətli üzvünün 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə qulluq etməsi.

61. Sosial yardım təyin olunmuş ailənin tərkibi, yaşayış ünvanı dəyişmədikdə və ailədə orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü və ya orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 2 (iki) və daha çox ailə üzvü olduqda sosial yardımın təyin edilmə müddəti

bitdikdən sonra həmin ailənin sosial yardımın alınması üçün növbəti 1 (bir) il ərzində təkrar müraciəti Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun struktur bölmələrinin və ya "DOST" mərkəzlərinin sosial yardım üzrə işçisinə tapşırıq göndərilmədən Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" (VEMTAS) altsistemi tərəfindən araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır.

62. 2 və daha çox 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü olan ailələrin adambaşına düşən orta aylıq gəliri qanunvericiliklə müəyyənləşdirilən hesablama qaydası tətbiq edilmədən ailənin bəyan etdiyi məbləğdə götürülür.

## Evdə (səyyar) sosial xidmət

63. Əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan əlilliyi olan şəxslər evdə (səyyar) sosial xidmətdən yararlana bilər.

- Əlilliyi olan şəxslərə xidmət göstərilməsi vaxtı reabilitasiya xidmətinin növündən asılı olaraq tərəflərin razılığı ilə müəyyən edilir;
- Evdə (səyyar) sosial xidmət ödənişsiz, qismən ödənişli və tam ödənişli əsaslarla göstərilir.;
- Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) evlərdə (səyyar) sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir;
- Qismən ödənişli və tam ödənişli sosial xidmət tərəflər arasında bağlanmış sosial xidmət müqaviləsi əsasında həyata keçirilir;
- Evdə (səyyar) sosial xidmət həmin xidmətin xarakterindən asılı olaraq, sosial işçi və sosial xidmətçi tərəfindən göstərilir.

64. Sosial işçi tərəfindən göstərilən xidmətlərə aşağıdakılar daxildir:

- sosial xidmətə ehtiyacı olan şəxsə tibbi və psixoloji yardım və hüquqi məsləhət almaqda köməklik göstərmək;
- əlilliyi olan şəxslərin internat evinə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə müvafiq xüsusi təhsil müəssisələrinə göndərilməsi üçün lazımi sənədlərin toplanmasına köməklik göstərmək;
- əlilliyi olan şəxslərə reabilitasiya xidməti göstərmək;
- 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin gündəlik həyatda lazım olan vərdiş və bacarıqlarını, böyük və kiçik motorika, ünsiyyət və koqnitiv bacarıqlarını inkişaf etdirmək;
- 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin sosial uyğunlaşmasına dəstək vermək;

- 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin inkişafı üçün valideynlərə müvafiq məsləhətlər vermək, o cümlədən zəruri yardımçı cihaz və vasitələrdən istifadəni öyrətmək;
- ailənin sosial inkluziyasına köməklik göstərmək;
- 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin ehtiyaclarının ödənilməsi və problemlərinin həlli məqsədi ilə müvəkkillik fəaliyyətini həyata keçirmək.

65. Sosial xidmətçi tərəfindən göstərilən xidmətlərə aşağıdakılar daxildir:

- yemək hazırlanmasına kömək etmək (o cümlədən diyetik yeməklər);
- özünə qulluq edə bilməyən xəstələri yedizdirmək və qabları yumaq;
- şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım etmək;
- yataq dəstlərini dəyişdirmək, yataq və geyim əşyalarını yumaq və ütüləmək;
- yataq və geyim əşyalarını camaşırxanaya, kimyəvi təmizləmə məntəqəsinə (əgər camaşırxana və kimyəvi təmizləmə məntəqəsi varsa) aparıb-gətirmək;
- paltarların xırda təmirini etmək;
- mənzili yığışdırmaq və təmizləmək;
- zəruri ərzaq, sənaye və məişət mallarını almaq;
- mənzil pulunun və digər kommunal xərclərin ödənilməsini təşkil etmək;
- istiliyə, yanacağa, təmirə olan ehtiyacların ödənilməsi məqsədi ilə aidiyyəti təşkilatlarla əlaqə saxlamaq;
- həyətyanı sahəni nizama salmaq;
- evə həkim çağırmaq, həkimin təyinatı ilə aptekdən dərman almaq, həkim müayinəsinə aparıb-gətirmək;
- sosial xidmətə götürülmüş vətəndaş vəfat etdikdə, dəfni ilə bağlı məsələlərin həllinə köməklik göstərmək.

### 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün günərzi qayğı mərkəzi xidmətləri

66. Günərzi qayğı mərkəzlərində 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin psixo-sosial reabilitasiyası, fərdi və qrup işlərinə cəlb olunması, idman, rəqs, musiqi və digər məşğələlərə, müxtəlif tədbirlərə qoşulmaları, həmçinin valideynlər üçün valideynlik bacarıqlarının artırılması üzrə təlim proqramlarının təşkili və digər xidmətlər göstərilir.

### İdman və idman bacarıqlarının artırılması

67. Paralimpiya İdman Kompleksi əlilliyi olan şəxslər üçün idman məşğələlərinin təşkil edilməsi, idman növləri üzrə məşq vaxtlarının bölgüsünün aparılması, peşəkar idmanla məşğul olan əlilliyi olan şəxslərin idman yarışlarına hazırlığının təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi, Kompleksdə idmanla məşğul olan əlilliyi olan şəxslərə ilkin tibbi yardımın təşkil edilməsi, tibbi məsləhətlər verilməsi, ehtiyacı olanların müalicə-profilaktika müəssisələrinə göndərilməsinin təmin edilməsi, kütləvi bədən tərbiyəsi və idman yarışların keçirilməsini (idman növləri üzrə) həyata keçirir.

### Reabilitasiya vasitələri ilə təchizat

68. Əlilliyi olan şəxslərə protez-ortopediya məmulatları, təkərli oturacaqlar, texniki və başqa reabilitasiya vasitələri dövlət büdcəsi vəsaiti hesabına pulsuz verilir.

### Reabilitasiya müalicəsi

69. Əlilliyi olan şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan bərpa mərkəzlərində pulsuz reabilitasiya müalicəsi keçirlər.

### Peşə-əmək reabilitasiyası

70. Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində fiziki və yüngül formalı əqli və psixi pozuntuları olan 15-29 yaşlı əlilliyi olan şəxslərin peşə hazırlığı və peşə reabilitasiyasını həyata keçirir.
    Aşağıdakı ixtisaslar üzrə 3-6 aylıq kurslar təşkil olunur:
    - kompüter montajı
    - montajçı operator
    - dərzilik, toxuculuq
    - xalçaçılıq
    - dulusçuluq
    - aşpaz köməkçisi
    - ağac üzərində oyma
    - kişi bərbəri
    - qadın bərbəri
    - manikür
    - rəssamlıq

### Hüquq mühafizə orqanlarında çalışan əlilliyi olan şəxslərin imtiyazları

71. Əlilliyinin müəyyən edilməsi ilə bağlı birdəfəlik müavinət.
    Ədliyyə, fövqəladə hallar və prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmiş işçiyə vəzifə maaşının 6 misli məbləğində birdəfəlik müavinət verilir. Pensiyaya çıxması ilə əlaqədar verilmiş müavinətdən vergi tutulmur. *Bu hal pensiyaya çıxması, struktur və ştat dəyişiklikləri, xidməti vəzifələrinin icrası ilə əlaqədar həlak olmuş (vəfat etmiş) və ya qulluğun davam etdirilməsinə imkan verməyən xəstəliyə tutulmuş, xəsarət (yaralanma, travma, kontuziya) almış və əmlakına zərər vurulmuş ədliyyə; fövqəladə hallar; prokurorluq orqanlarının işçilərinə şamil edilmir.*

### Məhkəmə prosesində iştirakla bağlı

72. İnzibati icraatda və məhkəmə icraatında iştirak edən və ixtisaslaşmış vasitəçilərin köməyinə ehtiyacı olan əlilliyi olan şəxslər ixtisaslaşmış vasitəçilərin (qiraətçi və peşəkar surdotərcüməçi) xidmətləri ilə təmin edilirlər.

## Əlilliyi olan şəxslərə qulluq edən şəxslərə verilən üstünlüklər

### Əmək fəaliyyəti ilə bağlı üstünlüklər

73. 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınların xahişi ilə işəgötürən onlara işlənmiş vaxta mütənasib əməkhaqqı ödənilən natamam iş günü və ya natamam iş həftəsi müəyyən etməlidir.
74. 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınlara 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir.
75. Öhdəsində 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü olan işçilərin məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində aşağıdakı əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır:
    - işçilərin sayı və ya ştatları ixtisar edildikdə;
    - peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə müvafiq qərar qəbul edildikdə;
    - işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud Əmək Məcəlləsinin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda;
    - sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;
    - dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda.

### Vergi ilə bağlı üstünlüklər

76. Təhsil müəssisələrinin, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin mənfəəti – mənfəətin dividendlərin ödənilməsinə yönəldilən hissəsi istisna olmaqla vergidən azaddır.
    *Məsələn: xüsusi təhsil müəssisinin mənfəəti 1000 manatdır. Təsisçiyə 500 manat divident ödəniləcək və bu məbləğdən 20 % mənfəət vergisi tutulur. 500- 500*20/100= 400. Dividendin ödənilməsinə yönəldilməyən 500 manatdan isə vergi tutulmur.*
77. Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. Bu güzəştlərin alınması hüququ müəyyən edilərkən işçilərin orta siyahı sayına əvəzçilik, podrat müqavilələri və mülki-hüquqi xarakterli digər müqavilələr üzrə işləyən əlilliyi olan şəxslər daxil edilmir

    *Məsələn: Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisəsinin aylıq mənfəəti 1000 manatdır. 20% mənfəət vergisi 50% azaldılaraq 10 % məbləğində*

*hesablanır. Yəni 1000 manat mənfəətdən 200 manat deyil 100 manat mənfəət vergisi tutulur. 1000*10/100= 100.*

78. Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları əmlak vergisini ödəməkdən azaddır.

### Ödənişlərlə bağlı üstünlüklər

79. Sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum, ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin, istedadlı uşaqlar üçün təhsil müəssisələrinin, eləcə də yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin əməkhaqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr olunur.
80. Yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona qanunvericilikdə müəyyən edilən qaydada sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi fasiləsiz iş stajından asılı olmayaraq, orta əməkhaqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.
81. Paralimpiya, Deflimpiya, Xüsusi Olimpiya komitələri, onların yerli şöbələri, idman klubları qanunvericiliyə uyğun olaraq yerləşdikləri dövlət mülkiyyətində olan binalardan və digər obyektlərdən pulsuz istifadə edirlər.
82. Ər və arvad bir-birinə maddi cəhətdən kömək göstərilməsindən imtina etdikdə və ər-arvad arasında alimentin ödənilməsi barədə saziş olmadıqda 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad buna zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.
83. Əlilliyi olan, o cümlədən sağlamlıq imkanları məhdud olan, uzun müddət müalicəyə ehtiyacı olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olan, habelə onların arasından olan, ciddi tərbiyə şəraitinə ehtiyacı olan təhsilalanların təhsilini, müalicəsini, sosial adaptasiyasını və ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi peşə təhsili müəssisələrində, o cümlədən yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin vəzifə maaşlarına əlavələr olunur.

### Hərbi xidmətə çağırışçılarla bağlı üstünlüklər

Ailə vəziyyətinə görə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət, himayəsində aşağıdakı şəxslər olan çağırışçılara verilir:

84. başqa övladı olmayan orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ata, yaxud ana;
85. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş arvad;

86. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş qardaş və ya bacı, onları saxlamaq imkanına malik başqa ailə üzvləri olmadıqda.

## Hüquqlar

### Əmək fəaliyyəti ilə bağlı hüquqlar

87. Əlilliyi olan işçilər gecə vaxtı görülən işlərə yalnız onların yazılı razılığı ilə və tibbi rəy nəzərə alınmaqla cəlb edilə bilərlər.
88. 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan (və ya belə uşağı övladlığa götürən) qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yalnız onların yazılı razılığı ilə yol verilir.
89. orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş işçilər üçün iş vaxtı həftə ərzində **36** saatdan artıq olmamalıdır.
90. Vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlilliyi müəyyən edilmiş işçilərin attestasiyası keçirilmir.
91. İşəgötürən tərəfindən əlilliyi olan şəxslərə əmək funksiyalarının yerinə yetirməsi üçün "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən iş yerlərinin standartlarına cavab verən iş yeri və iş şəraiti yaradılmalıdır.
92. İşəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi olan işçilərin, onların arzusu ilə və Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmağa və ya yenilərini təşkil etməyə borcludurlar.
93. İşçilərin ixtisarı zamanı ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslərə üstünlük verilməlidir.
94. Müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə, həmçinin həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan işçi ilə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə yol verilmir.
95. 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınlara onların müraciəti ilə işəgötürən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməlidir.
96. Orqanizmin funksiyalarının pozulması faizindən, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlilliyi olan işçilərə əmək məzuniyyəti 42 təqvim günündən az olmayaraq verilir.

97. Orqanizmin funksiyalarının pozulması faizindən və səbəbindən asılı olmayaraq əlilliyi olan işçilərə ödənişsiz məzuniyyət — 1 təqvim ayınadək.
98. 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan valideynlərə bir iş ilində 14 təqvim gününədək ödənişsiz məzuniyyət verilir.
99. Əlilliyi olan şəxslərin əmək müqaviləsinin bağlandığı vaxt nəzərə alınmadan (6 aylıq müddət gözlənilmədən) işin birinci ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ vardır.
100. Əlilliyi olan şəxslərə və 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınlara əmək məzuniyyəti onların arzusu ilə, onlar üçün əlverişli olan vaxtda verilə bilər.
101. İş yerində bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və yüngül işə müvəqqəti keçirilmiş işçilərə əvvəlki əməkhaqqı ilə yeni iş yerindəki əməkhaqqı arasındakı fərq ödənilir. Bu fərq işçinin əmək qabiliyyəti bərpa olunanadək və ya əlillik sonunadək ödənilməlidir.
102. Əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə yol verilmir.
103. Əlilliyi olan şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir.
104. İşçi əlilliyə görə əmək pensiyasına çıxdıqda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər.
105. Əmək kollektivlərinin razılığı ilə kollektivdə işləyən orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin əməkhaqqının (tarif dərəcəsinin) digər işçilərə nisbətən 10-15 faiz, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin əməkhaqqının isə 20-25 faiz artırılmasının təmin edilir.

### Məşğulluqla bağlı hüquqlar

106. Əlilliyi olan şəxslər və 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqları tərbiyə edən valideynlərin məşğulluğunu təmin etmək üçün mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatlarda vətəndaşların kvota tətbiq edilir. Bu zaman işçilərinin sayı 25-dən 50-dək olan müəssisələrdə iş yerlərindən biri, işçilərinin sayı 50-dən 100-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 2 faizi, işçilərinin sayı 100-dən çox olan müəssisələrdə isə işçilərin orta illik siyahı sayının 2,5 faizi əlilliyi olan şəxslər üçün nəzərdə tutulur.

*Kvota şamil edilməyən müəssisələrə aiddir:*

- *Dövlət orqanları;*
- *Mərkəzi və yerli seçkili orqanlar (seçki yolu ilə tutulmayan vəzifələr istisna olmaqla);*
- *Elm və ali təhsil müəssisələri (elmi və elmi-pedaqoji fəaliyyətlə bağlı müsabiqə yolu ilə tutulmayan vəzifələr istisna olmaqla);*
- *İşçilərinin orta illik siyahı sayı 25 nəfərdən az olan müəssisələr;*
- *Hərbi qurumların, hüquq mühafizə, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat və prokurorluq orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən struktur bölmələri, penitensiar müəssisələr və istintaq təcridxanaları.*

107. Özünüməşğulluğunun təşkili zamanı əlilliyi olan şəxslərə üstünlük verilir.
108. Sosial iş yerlərinin təşkili zamanı əlilliyi olan şəxslərə üstünlük verilir.
109. İşəgötürənlər istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi olan işçilərin işə düzəlməsi üçün iş yerləri ayırmağa və ya yenilərini təşkil etməyə borcludurlar.

## Təhsillə bağlı hüquqlar

110. Təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir:
    - dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər;
    - dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş vətəndaşların uşaqları;
    - dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrində təhsil alan 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər.
111. Dövlət məktəbəqədər təhsil müəssisəsinə, ilk növbədə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları qəbul edilirlər.

112. Sağlamlıq imkanları məhdud şəxslərin valideynlərinin və ya digər qanuni nümayəndələrinin psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən aparılan müayinədə və müayinə nəticələrinin müzakirəsində iştirak etmək hüquqları vardır.

### Dövlət qulluqçuları ilə bağlı hüquqlar

113. Əlilliyinə görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (azı 15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilir.

114. Dövlət qulluqçusu özünün və ya ailə üzvlərinin əlilliyi ilə əlaqədar pensiyalar və müavinətlər almaq hüququna malikdir.

### Çernobıl AES səbəbilə əlilliyi olan şəxslərin hüquqları

115. Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə tutulmuş və ya bu xəstəliyi keçirmiş, habelə əlilliyi müəyyən edilmiş şəxslərə, əmək qabiliyyətini müvəqqəti itirmiş işləyən əlilliyi olan şəxslərə 4 ay dalbadal, yaxud bir təqvim ilində 5 aya qədər müavinət verilir.

116. Şüa xəstəliyinə tutulmuş və bu xəstəliyi keçirmiş şəxslər, əlilliyi olan şəxslər tibbi göstəricilərə əsasən azmaaşlı işə keçirilərkən əvvəlki maaşla yeni maaş arasındakı fərqi almaq hüququna malikdirlər. Bu fərq əmək qabiliyyəti bərpa edilənədək, yaxud əlillik müəyyənləşdirilənədək iş yerində ödənilir.

117. Əlillik Çernobıl AES-də qəza nəticəsində əmələ gəldikdə müddətsiz müəyyən edilir.

118. Çernobıl qəzası nəticəsində şüa xəstəliyinə tutulmuş, bu xəstəliyi keçirmiş, habelə əlilliyi müəyyən edilmiş şəxslərə uşağa qulluq üzrə qismən ödənişli məzuniyyət üçün müavinət qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş müavinətdən iki dəfə artıq məbləğdə ödənilir.

### Yol hərəkəti

119. Parklanma yerlərinin 5 faizi (bir parklanma yerindən az olmayaraq) əlilliyi olan şəxslər üçün ayrılır. Əlilliyi olan şəxslər üçün ayrılmış parklanma yerləri müvafiq nişanlanması ilə işarələnir. Əlilliyi olan şəxslər üçün ayrılan parklanma yerlərində yalnız "əlilliyi olan şəxs" tanınma nişanı ilə nişanlanmış nəqliyyat vasitələri dura bilərlər.

120. Əlilliyi olan şəxs tanınma nişanına malik nəqliyyat vasitələrinə aşağıdakı nişanlar tətbiq edilmir:

- Hərəkət qadağandır;
- Durmaq qadağandır;
- Ayın tək günlərində durmaq qadağandır;
- Ayın cüt günlərində durmaq qadağandır.



121. “Əlilliyi olan şəxs” tanınma nişanı orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə nəqliyyat vasitəsi dövlət qeydiyyatına alınarkən və ya onların müraciəti və müvafiq orqanizmin funksiyalarının pozulması faizini təsdiq edən sənəd əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən ödənişsiz təqdim olunur. “Əlilliyi olan şəxs” tanınma nişanı yerləşdirilmiş nəqliyyat vasitəsini idarə edən şəxs orqanizmin funksiyalarının pozulması faizini təsdiq edən sənədi özündə saxlamalı və müvafiq icra hakimiyyəti orqanı əməkdaşının tələbi ilə yoxlanılması üçün ona təqdim etməlidir.

122. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərin nəqliyyat vasitəsini idarə etmək hüququ məhdudlaşdırıla bilməz.

## Mənzil təminatı

123. Sosial kirayə müqavilələri əsasında yaşayış sahələrinin kirayəçisi və ya ailə üzvləri, yaxud yaşayış sahəsinin mülkiyyətçisi və ya yaşayış sahəsi mülkiyyətçisinin ailə üzvləri olmayan və yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış  işəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası nəticəsində orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, peşə xəstəliyinə tutulma nəticəsində orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər, hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi zamanı yaralanmış, kontuziya nəticəsində və ya hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar xəstəlik nəticəsində orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş hərbi qulluqçular xidməti yaşayış sahələrindən və yataqxanalarda yaşayış sahələrindən digər yaşayış sahəsi verilmədən çıxarıla bilməz.

124. Mənzil və ya ev (evin bir hissəsi) alqı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə  işləyib-işləməməsindən asılı olmayaraq müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər notariat hərəkətlərinin aparılmasına görə  dövlət rüsumu ödəmirlər.

125. Hərbi xidmət vəzifələrinin icrası ilə əlaqədar əlilliyi müəyyən edilmiş və bununla əlaqədar hərbi xidmətdən buraxılmış hərbi qulluqçulara seçdikləri yaşayış yerində mənzil və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi növbədənkənar verilir.

126. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirakla əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə bələdiyyə torpaqlarının mülkiyyətə (icarəyə) verilməsi məqsədilə torpaq hərracları və ya müsabiqələrinin keçirilməsi zamanı bərabər təkliflər irəli sürüldükdə üstünlük verilir.

127. Azərbaycan Respublikası Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 16 avqust 2021-ci il tarixədək uçotda olan gözdən əlilliyi olan şəxslər Azərbaycan

Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəlilik qaydasında mənzil və ya fərdi evlə təmin edilir.

128. 2023-cü il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəlilik qaydasında mənzil və ya fərdi evlə təmin edilir

## Minik avtomobili təminatı

129. Aşağıdakı səbəblərlə əlilliyi olan şəxslər tibbi göstəriş pulsuz minik avtomobili ilə təmin olunurlar:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar;
- 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar;
- hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar;
- Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar.

## Hüquqpozma törətmiş əlilliyi olan şəxslərə edilən güzəştlər

130. İctimai işlər orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə tətbiq oluna bilməz.

131. İslah işləri orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə təyin edilmir.

132. Himayəsində orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növü şamil edilmir.

133. Orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər barəsində inzibati həbs tətbiq edilə bilməz.

134. Cəza çəkməkdən azad edilmiş orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər öz ərizələri ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinə göndərilirlər.

135. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin, 18 yaşınadək əlilliyi müəyyən edilmiş məhkumların bağlama, sovqat və banderol almalarına məhdudiyyət qoyulmur.

136. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə ayda 15 manat miqdarında ərzaq məhsulları və ən zəruri mallar əldə etməyə icazə verilir.

137. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş məhkumlara könüllülük əsasında işləməyə icazə verilir.

138. Cəzaçəkmə müəssisələrində və həbsxanalarda orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş məhkumların şəxsi hesabına, bütün tutulmalı məbləğlərdən asılı olmayaraq, onlara hesablanmış əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı 60 faizi keçirilməlidir.

139. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş məhkumlara yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır və onlar üçün yeməyin xüsusi normaları müəyyən edilir.

## Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulmasına görə cərimələr

140. *40 manat məbləğində cərimə edilir:*

- "əlilliyi olan şəxs" tanınma nişanından qanunsuz istifadə edilməsinə görə
- küçəni keçən görmə qabiliyyəti tam məhdud olan piyadanın işarəsi ilə nəqliyyat vasitəsini dayandırmamasına görə

141. *60 manat məbləğində cərimə edilir:*

- Əlilliyi olan şəxslərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər nəqliyyat vasitələrinin parklanmasına görə

142. *300 manatdan 500 manatadək məbləğdə cərimə edilir:*

- əmək münasibətlərində əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsinə, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılmasına;
- əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə;
- müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;
- müəssisənin ləğv edilməsi halları istisna olmaqla, həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçi ilə əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;
- əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədilə tərtib olunmuş Fərdi Reabilitasiya Proqramının

dövlət orqanları və dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən icrasının təmin edilməməsinə;

- işəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçilərin, onların arzusu ilə və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq təsdiq edilmiş Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmamağa və ya yenilərini təşkil etməməyə görə.

143. *500 manatdan 1000 manatadək məbləğdə cərimə edilir:*

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin yaşadığı fərdi evlərin onlar üçün uyğunlaşdırılması ilə bağlı xərclərin təqsirkar hüquqi və fiziki şəxslər, dövlət orqanları tərəfindən ödənilməməsinə görə.

144. Məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsinə, məhkəmə aktının surətinin təkrar verilməsinə görə dövlət rüsumunun ödənilməsindən azad olunurlar:

- əlillik nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə iddiaçılar;
- məhkəmədə verilən iddialar üzrə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər.

## Xüsusi istedadlı əlilliyi olan şəxslərə dəstək

145. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində həssas qrupdan olan şəxslərin, həmçinin əlilliyi olan şəxslərin yaradıcılıq potensialının artırılması və sosial-psixoloji dəstək məqsədi ilə təlimlər keçirilir:

- audio-səsyazma və media istiqaməti
- floristika, bağçılıq və landşaft dizaynı istiqaməti
- bədii oyma istiqaməti
- xalçaçılıq, toxuma və tikmə istiqaməti
- dərzilik istiqaməti
- fotoqrafiya istiqaməti
- musiqi istiqaməti
- dulusçuluq istiqaməti
- təsviri incəsənət istiqaməti
- rəqs istiqaməti
- kulinariya istiqaməti
- səhnə ifaçılığı istiqaməti
- idman

https://e-qanun.az/framework/27420